

## TƏHMİRAZ İMANOV

### ANACAN

Bu dünyada çox adamdan qaçmışam,
Təkcə səndən qaçmamışam, anacan.
Hər sirrimi yalnız sənə açmışam,
Özgələrə açmamışam, anacan.

Taleyimdən çox zərbələr almışam,
Çətin gündə səni yada salmışam,
Səndən çox-çox uzaqlarda olmuşam,
Səndən uzaq qaçmamışam, anacan.

Körpə olub uyuyardım səninçün,
Sözdən xalı toxuyardım səninçün,
Gözəl nəğmə oxuyardım səninçün, -
Mən hələ dil açmamışam, anacan.

### BİLMİRƏM

Nədir insan ömrü, -
Bir çimir yuxu,
Uzunluğu bəlli, eni, - bilmirəm.
Ulu dünyamızın sevinci, qəmi
Bizimçün köhnədir, yeni, - bilmirəm.

Tanrımı, talemi nəzərdən saldı,
Gözümü həsrətin bürkü süaldı,
Allahım, harada, nə yerdə qaldı
Sevincin dumanı, çəni, - bilmirəm.

İllər ömrümüzün sıra sayıdır,
Torpaqdan yaranan ora qayıdır,
Ölüm hamımıza Tanrı payıdır
Məni söz öldürər, səni, - bilmirəm.

***Təhmiraz İmamov 1957-ci ildə Dərbənd rayonunun Mitəhi-Qazmaları kəndində anadan olmuşdur. Dərbənd Pedagoji məktəbini, Dağıstan dövlət pedagoji inctitunun filologiya fakültəsini bitirib. Rusiya yazıçılar ittifağının üzvüdür. Əsərləri müxtəlif illərdə "Azərbaycan", "Ulduz" jurnallarında, Azərbaycanın və Rusiyanın mətbu organlarında nəşr olmuşdur. Hazırda Dərbənd şəhərində yaşayır.***

## HAQQ EŞİDƏR ŞAİRİ

Misra-qədəmlərindən
Bağ eşidər şairi.
Ah qopsa qəmlərindən,
Dağ eşidər şairi.

Sel eşidər - yolu var,
Kol eşidər, - gülü var,
Diri ikən ölüvar
Sağ eşidər şairi.

Lal daşlar eşitməsə,
Dik başlar eşitməsə,
Çağ daşlar eşitməsə,
Çağ eşidər şairi.

Aranın qulağı var,
Çaranın qulağı var,
Qaranın qulağı kar
Ağ eşidər şairi.

Qəlbə nur saçıldısa,
İlhamı açıldısa,
Bəsidir pıçıldasa
Xalq eşidər şairi.

Ömür - ayıq röyadır,
Yatmışları oyadır,
Dünya, nahaq dünyadır,
Haqq eşidər şairi.

## GÖZƏLİM MƏNİM

Mənim öz yarım var, öz gözəlim var,
Təkcə məni sevir gözəlim mənim.
Onun ləblərində, onun telində
Gəz, dodağım mənim, gəz, əlim mənim.

O mənim göyərçin gözlü bənövşəm.
Sevən qəmxar olar, mən də yemişəm.
Vüsala çatınca özüm demişəm:
Döz, ürəyim mənim, döz, əlim mənim.

O mənim mirvarim, o incim mənim,
Fərəhim, qururum, sevincim mənim,
O mənim inancım, güvəncim mənim,
Baharım, payızım, xəzəlim mənim.

Gündüz az görürəm, röyaya gəlir,
Hər adi bir kəlməm mənaya gəlir.
Yalnız onun üçün dünyaya gəlir
Qoşmam, müxənnəsim, qəzəlim mənim.

Bütün arzularım arzu qalardı,
Sevgisiz ömrümə duman dolardı,
Çoxlu gözəllərdə gözüm qalardı,
Əgər olmasaydı gözəlim mənim.

